| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 17.01.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 232 |
| ADI | “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Respublika Qəzeti (Dərc olunma tarixi: 18-01-2014, Nəşr nömrəsi: 10), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2014, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 45) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 18.01.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 100.020.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 32201401170232 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 21.01.2014 |

**“2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında həyata keçirilən inkişaf strategiyasının başlıca məqsədləri ölkədə davamlı və yüksək iqtisadi artıma və sosial rifaha nail olunmasıdır. Bunun üçün hazırkı mərhələdə iqtisadiyyatın şaxələnməsinin sürətləndirilməsi, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin olunması, ətraf mühitin qorunması, sahibkarlığın dəstəklənməsi, vətəndaşların gündəlik rahat həyatı üçün lazım olan bütün infrastrukturun yaradılması, o cümlədən səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman, əhalinin sosial müdafiəsi sahələrində keyfiyyətli xidmət göstərilməsi kimi başlıca fəaliyyət istiqamətləri reallaşdırılır, genişmiqyaslı işlər görülür. Ölkədə gedən inkişaf hər bir bölgəni, şəhəri, qəsəbəni və kəndi əhatə edir.

Son illərdə Bakı şəhərində və onun qəsəbələrində də tikinti-quruculuq işləri geniş vüsət almışdır. “Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı” və “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”, eləcə də iqtisadiyyatın inkişafı ilə bağlı qəbul edilmiş müxtəlif sahəvi dövlət proqramları çərçivəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Bakı şəhərində də irimiqyaslı infrastruktur layihələrinin gerçəkləşməsinə, sahibkarlıq və investisiya fəaliyyətinin genişlənməsinə, əhaliyə göstərilən xidmətlərin, o cümlədən kommunal və sosial xidmətlərin həcminin və keyfiyyətinin daha da yaxşılaşmasına, abadlıq işlərinin sürətlənməsinə şərait yaratmışdır. Həmin proqramların icrası nəticəsində Bakı şəhəri, onun qəsəbə və kəndləri yeni inkişaf mərhələsinə qədəm qoymuş, rəqabətqabiliyyətli və ixracyönümlü ən müasir müəssisələr yaradılmış, yeni iş yerləri açılmış, əhalinin həyat səviyyəsi daha da yüksəlmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Bakı şəhərinin və onun qəsəbələrinin inkişafının sürətləndirilməsi, burada yaşayan əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində işləri davam etdirmək məqsədi ilə **qərara alıram:**

1. “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrasını təmin edən tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə Dövlət Proqramında illər üzrə nəzərdə tutulmuş tədbirlərin hər il üçün Dövlət İnvestisiya Proqramı tərtib edilərkən nəzərə alınmasını təmin etsin;[1]

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi:

3.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə əlaqələndirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 yanvar 2014-cü il
232

Azərbaycan Respublikası Prezidentinin
2014-cü il 17 yanvar tarixli, 232 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair**

**Dövlət Proqramı**

**Giriş**

Ümummilli lider Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan ötən on ildə yeni inkişaf mərhələsinə qədəm qoymuş, bir çox uğurlara nail olmuşdur.

Azərbaycan iqtisadi qüdrəti gündən-günə artan etibarlı tərəfdaş kimi dünyada yüksək nüfuza malik olan ölkəyə, regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əvəzolunmaz iştirakçıya və əsas söz sahibinə çevrilmişdir.

Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz dinamik inkişaf edir, makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün əlverişli investisiya və rəqabət mühiti formalaşır.

Bu dövr, həmçinin Azərbaycan xalqının maddi rifahının və həyat səviyyəsinin xeyli yüksəlməsi, ölkənin şəhər və kəndlərinin, eyni zamanda paytaxt Bakının və onun qəsəbələrinin simasının dəyişməsi və yeniləşməsi ilə də səciyyələnir.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının (“Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı”nın və “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın) icrası nəticəsində Bakının qəsəbə və kəndlərində uğurlu infrastruktur layihələri həyata keçirilmiş, kommunal və sosial xidmətlərin həcmi və keyfiyyəti daha da yaxşılaşmış, abadlıq işləri geniş vüsət almış, əhalinin həyat səviyyəsi daha da yüksəlmişdir.

Bu gün başlıca vəzifələrdən biri müvafiq dövlət proqramları çərçivəsində görülmüş işlərin davam etdirilməsindən və şəhərətrafı qəsəbələrin və kəndlərin sakinlərinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasından ibarətdir.

“2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” qarşıda duran vəzifələrin davamlı yerinə yetirilməsi məqsədi ilə hazırlanmışdır.

## 1. “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” çərçivəsində görülmüş işlər

“2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində Bakının bütün rayonlarında, qəsəbə və kəndlərində infrastruktur təminatı, o cümlədən yol-nəqliyyat infrastrukturu daha da təkmilləşdirilmiş, əhalinin su və kanalizasiya, qaz, elektrik enerjisi, istilik təchizatı daha da yaxşılaşdırılmış, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafı təmin edilmiş, yeni sosial obyektlər tikilmiş, mövcud binalar əsaslı təmir edilmiş, sahibkarlığın inkişafı, sənaye, kənd təsərrüfatı, turizm, ekologiya, əhalinin sosial müdafiəsi və təhlükəsizliyi sahəsində mühüm işlər görülmüşdür. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasına 3 milyard manat vəsait xərclənmişdir.

Dövlət Proqramının icrası nəticəsində 3 il ərzində paytaxt və qəsəbələrdə, eləcə də Abşeron rayonunun qəsəbə və kəndlərində 3500 km qaz kəməri çəkilmiş, əlavə 132 min abonent qazla təmin olunmuşdur. 39 elektrik yarımstansiyası və 264 transformator tikilmiş və ya təmir edilmiş, 4400 km elektrik kabel xətti çəkilmiş, nəticədə əhalinin və iqtisadiyyatın enerji təchizatı təmin olunmuşdur. Dövlət Proqramının tələblərinə uyğun olaraq, əhalinin rahat həyat şəraitinin təmin edilməsi üçün istilik təchizatının səviyyəsi xeyli yüksəldilmiş, 21 qazanxana tikilmiş və ya modernləşdirilmiş, 36540 mənzilin istilik sistemi yenidən qurulmuş və 130 sosial obyekt istiliklə təchiz edilmişdir.

Son illər Bakı şəhərində və ümumən Abşeron yarımadasında infrastrukturun sürətli inkişafı nəzərə alınaraq, su təchizatı və kanalizasiya sahəsində əhəmiyyətli işlər görülmüşdür. Dövlət Proqramına uyğun olaraq su təminatı zəif olan ərazilər əsas götürülməklə, Bakı şəhərində və ətraf qəsəbələrdə 820 kilometr uzunluğunda supaylayıcı şəbəkə, ümumi tutumu 100 min kubmetr olan 7 ədəd su anbarı tikilmiş, 53 min mənzildən ibarət 900 çoxmənzilli yaşayış binasının daxili supaylayıcı sistemləri yenilənmiş, 120 min ədəd smart-kart tipli sayğac quraşdırılmış, uzunluğu 61 km olan Ceyranbatan-Balaxanı-Ramana-Qala magistral su kəməri istifadəyə verilmişdir. Dövlət Proqramının icra edildiyi müddətdə 220 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin edilmiş və fasiləsiz su alan əhalinin sayı 900 min nəfərdən 1 milyon 760 min nəfərə çatdırılmışdır. Eyni zamanda, əhaliyə verilən suyun keyfiyyətinə nəzarət etmək üçün müasir standartlara cavab verən Mərkəzi Laboratoriya tikilib istifadəyə verilmişdir. Dövlət Proqramı çərçivəsində 200 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi tikilmiş, uzun illər lillənərək suburaxma imkanını 50 faizə qədər itirmiş 225 kilometr uzunluğunda kanalizasiya kollektoru və şəbəkəsi xüsusi maşınlarla yuyularaq təmizlənmişdir. 320 min nəfərin yaşadığı 1220 binanın zirzəmisində 6000 metr kanalizasiya xətti yenilənmiş və ya bərpa edilmiş, nəticədə həmin binaların zirzəmilərinin sanitariya-gigiyena vəziyyəti yaxşılaşmışdır.

Yol infrastrukturunun təkmilləşdirilməsi də Dövlət Proqramında diqqət mərkəzində olmuşdur. Belə ki, Zabrat-Maştağa-Buzovna, “Zığ dairəsi-aeroport” yolundan Qala stansiyasınadək gedən yolda və Zabrat-Kürdəxanı-Pirşağı yolunda yenidənqurma işləri başa çatmış, Bilgəh-Novxanı-Sumqayıt, Zığ-Hövsan yollarında və Binə qəsəbəsinin baş yolunda isə işlər davam etdirilir. 22 qəsəbənin 420 mindən çox sakininin istifadə etdiyi 62 km qəsəbələrarası yol təmir olunmuş, rayon və qəsəbədaxili yollara 3 milyon kv.m-dən çox asfalt örtüyü salınmış, 41 körpü, tunel və piyada keçidi istifadəyə verilmişdir.

Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində proqram çərçivəsində 11 ATS, 9 poçt şöbəsi üçün bina tikilmiş, 28 ATS yenidən qurulmuş, Zirə, Gürgən və Pirallahı qəsəbələrinə fiber-optik kabel çəkilmiş, Bakinternetin qlobal internet şəbəkəsinə çıxış sürəti saniyədə 7,5 giqabitə çatdırılmışdır. Eyni zamanda Pirallahı Yüksək Texnologiyalar Parkının yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti 2013-cü il sentyabrın 16-da Fərman vermişdir. [2]

Aparılan sənayeləşmə siyasəti şəhərin və ətraf qəsəbələrin dinamik inkişafına ciddi təkan vermiş, son 3 ildə Bakıda gəmiqayırma, müasir tikinti materialları, metal konstruksiyalar, gəmi təmiri, təcrübə-sınaq, sement zavodları və digər sənaye müəssisələri tikilmiş, bir sıra istehsal və emal sənayesi müəssisəsinin tikintisi davam etdirilmişdir. Eyni zamanda Dövlət Proqramının icrası çərçivəsində Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında 2011-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamış, 2012-ci il dekabrın 19-da isə Balaxanı Sənaye Parkının rəsmi təməlqoyma mərasimi keçirilmişdir. Hazırda Sənaye Parkının infrastrukturunun qurulması, həmçinin Balaxanı qəsəbəsində plastik tullantı materiallarının, işlənmiş şinlərin və işlənmiş akkumulyatorların təkrar emalı müəssisələrinin yaradılması istiqamətində işlər davam etdirilir.

Bakıətrafı qəsəbələrdə aqrar sahənin inkişafına dəstək vermək məqsədi ilə Abşeron magistral kanalında yenidənqurma işləri davam etdirilmiş, Xəzər, Sabunçu, Suraxanı və Abşeron rayonlarında əkin və həyətyanı sahələrin su təminatının yaxşılaşdırılması üçün 278 min metr boru kəməri çəkilmiş, 6 baytarlıq məntəqəsi tikilmişdir.

Dövlət Proqramının əsas hədəflərindən biri olan sahibkarlığın inkişafı daim diqqət mərkəzində saxlanılmış, Proqramın qəbulundan ötən dövr ərzində “Bakı qəsəbələrində sahibkarlığın inkişafına dövlət dəstəyi”nə dair 33 tədbir keçirilmiş və 4550 sahibkara layihələrin seçilməsi, biznes-planların hazırlanması işində texniki yardım göstərilmişdir.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə Bakı qəsəbələri üzrə 680 sahibkara 148,2 milyon manat güzəştli kredit verilmiş və 5300-dək yeni iş yerinin açılması imkanı yaranmışdır. Müasir texnologiyaların tətbiqinə əsaslanan 53 iri layihə, o cümlədən 13 çörək zavodu, 48 hektar ərazidə 13 istixana kompleksi, 9 quşçuluq təsərrüfatı, 2 ət emalı fabriki, 2 metal konstruksiya və 14 digər sənaye müəssisəsi maliyyələşdirilmişdir.

İstifadəyə verilmiş və illik istehsal gücü 150 min ton olan müasir çörək zavodları Bakı şəhərində və ətraf qəsəbələrdə yaşayan əhalini geniş çeşiddə yüksək keyfiyyətli çörək və çörək məhsulları ilə təmin edir.

İllik istehsal gücü 5,3 min ton quş əti və 67 milyon ədəd damazlıq və əmtəəlik yumurta olan quşçuluq təsərrüfatlarının və illik istehsal gücü 1,8 min ton ət kəsimi və 10 min ton ət emalı olan emal fabriklərinin fəaliyyətə başlaması əhalinin ərzaq təminatının daha da yaxşılaşmasına öz töhfəsini verməkdədir.

Sosial sahənin inkişafı Dövlət Proqramının prioritetlərindən biri olmuş, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və digər sosialyönümlü sahələrdə əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Proqram çərçivəsində 174 məktəbdə və 121 uşaq bağçasında, 4 peşə məktəbində və 3 yaradıcılıq məktəbində təmir-tikinti işləri başa çatdırılmışdır.

İnsan amilinə xidmət edən sosial siyasətə uyğun olaraq, yeni və müasir tibb müəssisələrinin açılması, mövcud müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində rayon və qəsəbələrdə 41 xəstəxana, poliklinika, sanatoriya və digər tibb müəssisələri tikilmiş və ya təmir edilərək müasir avadanlıqla təchiz edilmişdir.

Ölkəmizin mədəniyyət və turizm sahələrinin inkişafı istiqamətində də bir sıra əhəmiyyətli layihələr həyata keçirilmiş, milli-mədəni irsimizin qorunması və inkişaf etdirilməsi istiqamətində ciddi nəticələrə nail olunmuşdur. Proqram çərçivəsində 12 mədəniyyət obyektində təmir-tikinti işləri yekunlaşmış, digər obyektlər üzrə isə işlər davam etdirilir.

Eyni zamanda Heydər Əliyev Fondunun qayğısı nəticəsində respublikamızın digər bölgələrində olduğu kimi, Bakıda, şəhərətrafı qəsəbə və kəndlərdə də milli və mədəni irsimizin qorunması, mədəniyyətin, təhsilin, səhiyyənin, idmanın və digər sahələrin inkişafı ilə bağlı mühüm işlər görülmüşdür.

Əhalinin, xüsusilə gənc nəslin hərtərəfli inkişafına xidmət edən bədən tərbiyəsi və idman infrastrukturunun

genişləndirilməsi istiqamətində 9 gənclər və idman obyekti təmir-tikinti işlərindən sonra istifadəyə verilmişdir.

Əhalinin sosial müdafiəsi sahəsində də əhəmiyyətli işlər görülmüşdür. Buzovna qəsəbəsində 9 saylı İxtisaslaşdırılmış Ruhi-Əsəb İnternat Evinin əsaslı təmiri başa çatdırılmış, Bilgəh qəsəbəsində Müharibə və Əmək Əlilləri üçün Pansionatın (Qocalar Evi) yeni korpusu tikilmiş, Yeni Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi istifadəyə verilmişdir. Həmçinin, Gözdən Əlillər üçün Tədris Bərpa Mərkəzinin, yetkinlik yaşına çatmayanlar üçün 50 yerlik İxtisaslaşdırılmış Reabilitasiya Mərkəzinin və Sosial Sığınacağın tikintisi, Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin, Respublika Əlillərin Bərpa Mərkəzinin təmiri işləri davam etdirilmişdir.

Əhalinin təhlükəsizliyinin təmin olunması məsələləri də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə Müşfiqabad və Hövsan qəsəbələrində yanğından mühafizə bölmələri tikilmiş, Biləcəri qəsəbəsində qəzalı vəziyyətdə olan yaşayış evi yenidən tikilərək istifadəyə verilmişdir.

Ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji durumun yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər ölkəmizdə ekoloji problemlərin həllini prioritet istiqamətlərdən birinə çevirmişdir.

Bakı şəhərinin ekoloji vəziyyətinə mənfi təsir edən amillərin aradan qaldırılması üçün neftlə çirklənmiş torpaqların və göllərin təmizlənməsi, sənaye müəssisələrinin şəhərətrafı ərazilərə köçürülməsi və yeni yaradılan müəssisələrə ciddi ekoloji tələblərin qoyulması artıq öz müsbət nəticəsini verməkdədir.

Belə ki, neftlə çirklənmiş 228 hektar ərazi rekultivasiya edilmiş, 1350 hektar sahədə 1,3 milyon ədəd ağac əkilmiş, 408 hektar ərazi abadlaşdırılmış, 53 yeni mədəniyyət və istirahət parkı salınmışdır.

Abşeron yarımadasında yerləşən 9 gölün və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə aparılan hazırlıq işləri bitmək üzrədir. Eyni zamanda Böyük Şor gölünün şərq hissəsindəki ərazinin ekoloji bərpası üçün layihələndirmə və mühəndis işlərinə başlanılmışdır.

Balaxanı poliqonunda tullantıların zərərsizləşdirilməsi prosesi daha da təkmilləşdirilmiş, bərk məişət tullantılarının yandırılması və bərk məişət tullantılarının çeşidlənməsi zavodları istifadəyə verilmişdir.

## 2. "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın əsas məqsədləri

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı məqsədlərə nail olunacaqdır:

1. əhalinin su və kanalizasiya təminatının, elektrik enerjisi, qaz və istilik təchizatının daha da yaxşılaşdırılması;
2. yol və nəqliyyat infrastrukturunun daha da yaxşılaşdırılması;
3. ekoloji vəziyyətin daha da yaxşılaşdırılması;
4. sosial-mədəni infrastruktur obyektlərinin (təhsil, səhiyyə, mədəniyyət, idman və gənclər, turizm və s.) beynəlxalq standartlara uyğun tikinti (inşası, yenidən qurulması) işlərinin davam etdirilməsi;
5. sahibkarlığın inkişafı istiqamətində yeni iş yerlərinin və müəssisələrin açılması siyasətinin davam etdirilməsi;
6. əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması.

## 3. 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının əsas istiqamətləri

Qarşıdakı illərdə Bakı şəhərində və onun qəsəbələrində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Bakının qazla təmin edilməyən qəsəbələrinin qaz təchizatının başa çatdırılması;
2. elektrik enerjisi ilə təchizatın daha da yaxşılaşdırılması istiqamətində müvafiq işlərin davam etdirilməsi;
3. mövcud istilik məntəqələrinin bərpası, modernləşdirilməsi və yenilərinin yaradılması istiqamətində işlərin davam etdirilməsi;
4. su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və yaradılması sahəsində müvafiq layihələrin davam etdirilməsi;
5. yol təsərrüfatı və nəqliyyat infrastrukturunun inkişafının davam etdirilməsi;
6. informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində işlərin davam etdirilməsi;
7. rəqabətqabiliyyətli və ixracyönümlü sənaye və kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi, sahibkarların maarifləndirilməsi sahəsində tədbirlərin davam etdirilməsi;
8. şəhərətrafı qəsəbələrdə suvarma və meliorasiya təminatının yaxşılaşdırılması;
9. təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi, texniki təchizatının və kadr təminatının daha da yaxşılaşdırılması;
10. səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi, müasir avadanlıqla təminatının daha da yaxşılaşdırılması;
11. daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, istifadəsi və bərpası, yeni mədəniyyət və istirahət mərkəzlərinin yaradılması sahəsində işlərin davam etdirilməsi;
12. bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının daha da inkişafı və möhkəmləndirilməsi sahəsində işlərin davam etdirilməsi;
13. sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial vəziyyətinin, həyat şəraitinin yaxşılaşdırılması və sosial mərkəzlərin yaradılması sahəsində işlərin davam etdirilməsi;
14. ekoloji vəziyyətin yaxşılaşdırılması, o cümlədən məişət tullantılarının toplanması və daşınması, zərərsizləşdirilməsi və emalı sahəsində işlərin davam etdirilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi, abadlıq və yaşıllaşdırma işlərinin genişləndirilməsi;
15. əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi.

## 4. 2014-2016-cı illərdə həyata keçiriləcək tədbirləri maliyyələşdirmə mənbələri

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

1. Azərbaycan Respublikasının dövlət büdcəsi;
2. Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin vəsaiti;
3. qanunvericiliyə zidd olmayan digər mənbələr.

**"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə**

## TƏDBİRLƏR PLANI[3]

| Sıra -si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| **1. Ümumərazi inkişaf tədbirləri** | | | |
| **Elektrik enerjisi təchizatı** | | | |
| 1.1. | Alternativ və bərpa olunan enerji mənbələrinin və enerjidən səmərəli istifadənin tətbiqinin genişləndirilməsi istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi |
| **Rabitə və informasiya** | | | |
| 1.2. | Əhalinin rabitə və informasiya texnologiyalarına çıxış imkanlarının daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi | 2014-2016 | *Rabitə və Yüksək Texnologiyalar Nazirliyi*[4] |
| **Yol təsərrüfatı və nəqliyyat** | | | |
| **1.3.** | **Yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi, o cümlədən:** | | |
| 1.3.1. | Qala — Pirallahı avtomobil yolunun tikintisinin davam etdirilməsi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.2. | Xəqani Rüstəmov küçəsində ("Ağ şəhər") yolun yenidən qurulmasının davam etdirilməsi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.3. | "Bilgəh — Novxanı — Sumqayıt" avtomobil yolunun tikintisinin davam etdirilməsi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.4. | Bakı şəhəri, Ziya Bünyadov prospektində yol infrastrukturunun yenidən qurulmasının davam etdirilməsi | 2014-2015 | Nəqliyyat Nazirliyi |
| 1.3.5. | Xocasən — Lökbatan avtomobil yolunun yenidən qurulmasının davam etdirilməsi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.6. | Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-11-ci km hissəsində yenidənqurma işlərinin davam etdirilməsi | 2014 | Nəqliyyat Nazirliyi |
| 1.3.7. | Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil yolunun dəniz suyu ilə yuyulmasının qarşısının alınması, yol üzərində avtomobil körpüsünün tikintisi və yol boyunca sahilbərkitmə işlərinin aparılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2015 | Nəqliyyat Nazirliyi |
| 1.3.8. | Biləcəri-Xocasən istiqamətində avtomobil yolunun yenidən qurulmasının davam etdirilməsi | 2014 | Nəqliyyat Nazirliyi |
| 1.3.9. | Həsən Əliyev küçəsindən Ziya Bünyadov küçəsinə paralel olaraq Koroğlu metrostansiyasına qədər yeni yolun tikintisi | 2014-2015 | Nəqliyyat Nazirliyi |
| 1.3.10. | Yeni dənizkənarı bulvar yolunun salınması | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.11. | Zığ-Hövsan avtomobil yolunun tikintisi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.12. | Tbilisi prospekti ilə H.Zərdabi küçəsinin kəsişməsində (20 yanvar dairəsi) yol ötürücüsünün tikintisi | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti* |
| 1.3.13. | Qəsəbələrarası yolların tikintisi və əsaslı təmiri | 2014-2016 | Nəqliyyat Nazirliyi, *"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti*[5] |
| **Ekologiya** | | | |
| 1.4. | Göllərin (Xocasən, Binəqədi, Lökbatan, Qaradağ, Qu, Zabrat, Zığ, Bülbülə) ekoloji vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, "Azərsu" ASC, Dövlət Neft Şirkəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, aidiyyəti Rayon İcra Hakimiyyətləri |
| 1.5. | Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılmasının 1-ci mərhələsinin başa çatdırılması | 2014-2015 | İqtisadiyyat və Sənaye Nazirliyi, "Azərsu" ASC, Dövlət Neft Şirkəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, aidiyyəti Rayon İcra Hakimiyyətləri |
| 1.6. | Neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində tədbirlərin davam etdirilməsi | 2014-2016 | Dövlət Neft Şirkəti |

| | | | |
|---|---|---|---|
| 1.7. | Yaşıllıq zolaqlarının genişləndirilməsi | 2014-2016 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Azərsu” ASC, Rayon İcra Hakimiyyətləri |
| **Sənayenin inkişafı** | | | |
| 1.8. | Sənayenin inkişafı, o cümlədən Balaxanı Sənaye Parkında müvafiq işlərin davam etdirilməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| **Kənd təsərrüfatının infrastruktur təminatı** | | | |
| 1.9. | Abşeron Magistral Kanalında yenidənqurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC |
| **Kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi** | | | |
| 1.10. | Kiçik və orta sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin maarifləndirilməsi, treninqlərin keçirilməsi və güzəştli kreditlərin verilməsi istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| 1.11. | Əhalinin sosial müdafiəsi üzrə obyektlərin əsaslı təmiri və tikintisi | 2014-2016 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **Əhalinin təhlükəsizliyi tədbirləri** | | | |
| **1.12.** | **Əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, o cümlədən:** | | |
| 1.12.1. | Bakı şəhərində Dövlət Yanğından Mühafizə Xidmətinin Tədris Mərkəzinin tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 1.12.2. | Bakı şəhərində Dövlət Yanğından Mühafizə Xidməti üçün istilik-tüstü kamerasının tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 1.12.3. | Rayonlar ərazisində tikiləcək və ya bərpa olunacaq yanğına qarşı su hovuzlarına aparan yollara bərk örtüyün çəkilməsi və yaxud təmir olunması | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 1.12.4. | Qəsəbələrdə yeraltı və yaxud yerüstü su xətlərinin mövcud olduğu ərazilərdə yanğın hidrantlarının quraşdırılması | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 1.12.5. | Yanğın su hovuzları yerləşən ərazilərdə (yollara, keçidlərə, binanın fasad hissəsinə və s.) müvafiq standartlara uyğun göstərici və nişanların (su hovuzunun həcmi, işarələr, gecə vaxtı işıqlandırması) quraşdırılması | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| **2. Bakı şəhərinin rayonları** | | | |
| **2.1. Binəqədi rayonu** | | | |
| **Qaz təchizatı** | | | |
| 2.1.1. | Qaz təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | Dövlət Neft Şirkəti |
| **Elektrik enerjisi təchizatı** | | | |
| 2.1.2. | Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | “Azərenerji” ASC, “*Azərişıq*” ASC[6] |
| **İstilik təchizatı** | | | |
| 2.1.3. | İstilik təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | “Azəristiliktəchizat” ASC |
| **Su təchizatı və kanalizasiya** | | | |
| 2.1.4. | Su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | “Azərsu” ASC |
| **Yol təsərrüfatı və nəqliyyat** | | | |
| 2.1.5. | Rayonun qəsəbədaxili və məhəllədaxili yollarının əsaslı təmiri, yenidən qurulması və işıqlandırılması | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| **Abadlıq və yaşıllaşdırma** | | | |
| 2.1.6. | Abadlıq və yaşıllaşdırma sahəsində tədbirlərin davam etdirilməsi | 2014-2016 | Rayon İcra Hakimiyyəti |
| **Kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi** | | | |
| 2.1.7. | Binəqədi qəsəbəsində yeni texnologiyaların tətbiqi ilə müasir ət kəsimi və emalı müəssisəsinin yaradılmasının dəstəklənməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| 2.1.8. | Binəqədi rayonunda müxtəlif təyinatlı sənaye məhsulları istehsalı müəssisələrinin yaradılmasının dəstəklənməsi | 2015-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| 2.1.9. | Kiçik sahibkarlığın inkişafının dəstəklənməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| 2.1.10. | Binəqədi rayonunda kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması və satışı üzrə logistika mərkəzinin tikintisinin dəstəklənməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| **Təhsil** | | | |
| **2.1.11.** | **Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi, o cümlədən:** | | |
| 2.1.11.1. | 157 saylı orta məktəbin əsaslı təmiri və əlavə 160 şagird yerlik 8 sinif otağının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.2. | Binəqədi qəsəbəsində 205 saylı orta məktəbin sökülərək 960 şagird yerlik məktəbin tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.3. | 8-ci mikrorayonda 283 saylı orta məktəbin əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.4. | 298 saylı orta məktəbin əsaslı təmiri, köməkçi binasının sökülərək yerində idman zalının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |

| | | | |
|---|---|---|---|
| 2.1.11.5. | Biləcəri qəsəbəsində 300 saylı orta məktəbin köhnə korpusunun (idman və akt zalı ilə) sökülərək 960 şagird yerlik yeni tədris korpusunun, idman və akt zalının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.6. | Binəqədi qəsəbəsində 1400 şagird yerlik yeni məktəbin tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.7. | Xocasən qəsəbəsi Sulutəpə yaşayış massivində 1400 şagird yerlik yeni məktəbin tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.8. | 6 nömrəli Bakı Peşə Liseyinin yenidən qurulması | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.9. | T.İsmayılov adına Bakı şəhəri Uşaq-gənclər yaradıcılıq sarayı üçün yeni binanın tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.10. | Rəsulzadə qəsəbəsində 76 saylı uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.11. | Biləcəri qəsəbəsində 234 saylı uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.12. | Xocasən qəsəbəsində 328 saylı uşaq bağçasının bərpa-gücləndirilməsi və əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.13. | Rəsulzadə qəsəbəsində Delfin uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.14. | Rəsulzadə qəsəbəsində Sahil uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.1.11.15. | Xocasən qəsəbəsi, Sulutəpə yaşayış massivində uşaq bağçasının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| **Səhiyyə** | | | |
| **2.1.12.** | **Səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi, o cümlədən:** | | |
| 2.1.12.1. | 9-cu mikrorayonda 9 nömrəli Uşaq Poliklinikasının təmiri, avadanlıq və inventarla təchiz olunması | 2014 | Səhiyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| 2.1.12.2. | 9-cu mikrorayonda 21 nömrəli Uşaq Poliklinikasının təmiri, avadanlıq və inventarla təchiz olunması | 2014 | Səhiyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| **Mədəniyyət** | | | |
| 2.1.13. | Mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi | 2014-2016 | Mədəniyyət və Turizm Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| **Gənclər və idman** | | | |
| **2.1.14.** | **İdman obyektlərinin əsaslı təmiri və tikintisi, o cümlədən:** | | |
| 2.1.14.1. | Stend Atıcılığı üzrə İdman Kompleksinin sökülərək yenidən qurulması | 2014-2015 | Gənclər və İdman Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| 2.1.14.2. | Dağ Velosipedi yarışları üçün veloparkın tikintisi | 2014-2015 | Gənclər və İdman Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| 2.1.14.3. | Rayon ərazisində idman meydançalarının yaradılması | 2014-2016 | Gənclər və İdman Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| **Əhalinin təhlükəsizliyi tədbirləri** | | | |
| **2.1.15.** | **Əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, o cümlədən:** | | |
| 2.1.15.1. | 7-ci mikrorayon yaşayış massivində yanğından mühafizə bölməsinin tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.2. | Biləcəri qəsəbəsində tutumu 50 kubmetr olan 1 ədəd və tutumu 75 kubmetr olan 2 ədəd yanğına qarşı su hovuzunun təmiri, 1 ədəd yanğına qarşı su hidrantının təmiri | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.3. | Sulutəpə qəsəbəsində tutumu 150 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.4. | Yeni avtovağzalın arxa hissəsindəki yaşayış massivində tutumu 100 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.5. | Atyalı yaşayış massivində tutumu 100 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.6. | Çiçək qəsəbəsində tutumu 100 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.7. | 9-cu mikrorayon, Mircəlal küçəsində tutumu 150 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun təmiri | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.8. | 9-cu mikrorayon, Cavadxan küçəsində tutumu 100 kubmetr olan 1 ədəd yanğına qarşı su hovuzunun təmiri | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| 2.1.15.9. | Binəqədi RDYMH-nin yanğından mühafizə bölməsinin tikintisi | 2014-2016 | Fövqəladə Hallar Nazirliyi |
| **2.2. Xəzər rayonu** | | | |
| **Qaz təchizatı** | | | |
| 2.2.1. | Qaz təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | Dövlət Neft Şirkəti |
| **Elektrik enerjisi təchizatı** | | | |
| 2.2.2. | Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | "*Azərişıq*" ASC |
| **İstilik təchizatı** | | | |
| 2.2.3. | İstilik təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | "Azəristiliktəchizat" ASC |
| **Su təchizatı və kanalizasiya** | | | |
| 2.2.4. | Su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi | 2014-2016 | "Azərsu" ASC |
| **Yol təsərrüfatı və nəqliyyat** | | | |

| | | | |
|---|---|---|---|
| 2.2.5. | Rayonun qəsəbədaxili və məhəllədaxili yollarının əsaslı təmiri, yenidən qurulması və işıqlandırılması | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| **Abadlıq və yaşıllaşdırma** | | | |
| 2.2.6. | Abadlıq və yaşıllaşdırma sahəsində tədbirlərin davam etdirilməsi | 2014-2016 | Rayon İcra Hakimiyyəti |
| **Ekologiya** | | | |
| 2.2.7. | Məişət tullantılarının daşınması və utilizasiyası məqsədi ilə Xəzər rayonunda çeşidləmə və yükləmə-boşaltma məntəqəsinin yaradılması | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, “Təmiz Şəhər” ASC |
| **Kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi** | | | |
| 2.2.8. | Kiçik sahibkarlığın inkişafının dəstəklənməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| 2.2.9. | Xəzər rayonunda müasir istixana təsərrüfatlarının yaradılmasının dəstəklənməsi | 2014-2016 | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi |
| **Təhsil** | | | |
| **2.2.10.** | **Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi, o cümlədən:** | | |
| 2.2.10.1. | Buzovna qəsəbəsində 33 saylı orta məktəb üçün idman zalının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.2. | Binə qəsəbəsində 121 nömrəli tam orta məktəbin əsas korpusunun əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.3. | Mərdəkan qəsəbəsində 181 nömrəli tam orta məktəb üçün 18 əlavə sinif otağının tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.4. | Qala qəsəbəsində 323 nömrəli tam orta məktəbin cari təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.5. | Zirə qəsəbəsində 324 nömrəli tam orta məktəbin cari təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.6. | Qala qəsəbəsində Hərbi şəhərcik tərəfdə yeni 600 şagird yerlik məktəbin tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.7. | Binə qəsəbəsi Südçülük Fermasının yanında 1300 şagird yerlik yeni məktəbin tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.8. | 2 nömrəli uşaq bağçasının sökülərək 80 yerlik binanın tikintisi | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.9. | Buzovna qəsəbəsində 144 nömrəli uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| 2.2.10.10. | Mərdəkan qəsəbəsində “İnci” uşaq bağçasının əsaslı təmiri | 2014-2016 | Bakı Şəhər İcra Hakimiyyəti |
| **Səhiyyə** | | | |
| **2.2.11.** | **Səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi, o cümlədən:** | | |
